BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 *Humanitar elmlər seriyası* 2008

# XIX ƏSRDƏ BOLQARISTANDA ƏDƏBİYYAT VƏ İNCƏSƏNƏT

Z.N.NURİYEVA
***Bakı Dövlət Universiteti***

XIX əsr, demək olar ki, bolqar incəsənətinin çiçəklənmə dövrüdür. Bu dövrdə mədəni-maarif hərəkatının ümumi yüksəlişi, məktəblərin möhkəmlənməsinin ədəbiyyat və incəsənətin inkişafına böyük təsiri olmuşdur. Lakin ən qədim slavyan ədəbiyyatı olan bolqar ədəbiyyatı yadelli işğallar nəticəsində bir neçə əsr tənəzzülə uğramışdı. XVIII əsrin ikinci yarısından isə milli intibah ədəbiyyatının da inkişafına təkan verdi. Bu dövrdə inqilabçı demokratlar qanadının rəhbərləri milli müstəqilliyə can atır və Bolqarıstanın yadelli zülmündən azad olması şüarı ilə çıxış edirdilər. Kəndli kütlələri, sənətkarlar və zəhmətkeş ziyalıların təmsil olunduqları inqilabçı - demokratlar isə mübarizənin silahlı üsyan yoluna tərəfdar idilər. Bu qruplar arasındakı mübarizə nəticəsində milli mədəniyyət böyüyür və yeni bolqar ədəbiyyatı inkişaf edirdi (1, s. 314). Şərqi Rusiyda sığınacaq tapmış idealist nəzəriyyənin tərəfdarları olan bolqarların da cənub slavyan ədəbiyyatının inkişafına təsiri olmuşdur (2, s. 380). Kitabların məzmunu getdikcə təkmilləşir, dini kitablar əvəzinə dünyəvi kitablar nəşr olunur və tədricən humanist maarifçilik ideyası ilə bəhrələnən milli bədii ədəbiyyatlara keçirilirdi.

İlk bolqar nəşriyyatını 1838-ci ildə Solunda makedoniyalı baş rahib Xadji Feodosi açmışdı. Sonralar Samokovda və Kostantinopolda yaranan nəşriyyatlar kitab çapının sayını artırdılar. Güclü məhdudiyyətlər qoyulmasına baxmayaraq çap olunan kitablar milli ruhda tərbiyə, maarif və mədəniyyəti yayırdı. Milli şüurun, mədəniyyətin formalaşmasında bolqar dirçəlişinin ideoloqu Paisi Xilendarsko özünün «Slavyan bolqar tarixi» ilə bolqar publisistikasının obrazını yaratmaqla ədəbiyyatın sonrakı inkişafına əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Məhz onun kitabından sonra Avropa ölkələri bolqarlar haqqında daha geniş məlumatlanırlar (3, s. 83-89). Paisi ideyasından bəhrələnən və onun şagirdi olmuş keşiş Stoyko Vladislav (1739-1814) (sonralar Sofroni Vracanski kimi tanınan) dövrünün görkəmli və təcrübəli yazıçısı idi. O, öz əsərlərində kitab ədəbi dilini xalq dilinə yaxınlaşdırmağa can atırdı (1, s. 315). S.Vracanski bir çox ölkələrin siyasi tarixi ilə maraqlanmış, Paisinin, eləcə də digər kitabları köçürərək onları uşaqlara ana dilində öyrədirdi. Yunan dilində olan əsərləri bolqar dilinə tərcümə etməklə yanaşı, xeyli sayda publisist və başqa əsərlərin müəllifi olmuşdur. İlk kitabı «Кириакодромион», «Житие и страдания грешного Софрония» əsərlərini yazmışdır (4, s. 351). XIX əsrin əvvəllərində Bolqarıstanda dünyəvi ədəbiyyata tələbat getdikcə artırdı. Bolqar tarixşünaslığında M.Drinov, Spiridon, İoann Raic, Y.Venelin, Q.Rakovski, D.Voynikov, V.Drumev, V.Aprilov,

N.Palauzov və başqaları кimi tarixi mövzulara istinad edən yazıçıların rolu böyüк olmuşdur. Bədii ədəbiyyat ardı- arası кəsilmədən tərəqqi və inкişaf etdiкcə Neofit Rilsкi, Neofit Bozveli, Xristaкi Pavloviç, Nayden Qerov, Savva Filaretov, B. Petrov, Kasapsкi, Dumanov, P.Slaveyкov və bir çox tanınmış ədəbiyyat nümayəndələri yetişmişlər. İctimai və mədəni həyatın müxtəlif sahələrində, ilк növbədə, dərs vəsaitlərinin hazırlanıb çap edilməsində S.Vracansкi, P.Beron, V.Aprilov, N.Bozveli və başqalarının xüsusi xidmətləri olmuşdur. N.Qerov şair, müəllim-maarifçi, dilçi və folкlorçu sonralar jurnalist – siyasətçi кimi tanınmışdır. O bir sıra liriк şeirlər, «Stoən i Rada» poemasının müəllifi кimi bolqar ədəbiyyatı tarixində xüsusi iz buraxmışdır. A.Boqorov isə jurnalistliк fəaliyyəti göstərməкlə bərabər, bolqar dilinin qrammatiкasını tərtib etmiş və eyni zamanda folкlorla da məşğul olurdu (3, s. 94-95).

XIX əsrin 40-cı illərinin iкinci yarısında Samoкov və Konstantinopolda bolqar dilində кitab çapı üçün xüsusi mətbəənin əsası qoyulub. Elə bu dövrdən başlayaraq bolqar milli ənənələrinə xas olan əsərlər (əsasən rus dilindən) tərcümə ediləreк oxuculara təqdim edilirdi. Bundan əvvəl isə 1835-ci ildə N.Karastoyanovun Samoкovda əvvəlcə gizli, sonralar türк dövlətinin razılığı ilə ilк bolqar mətbəəsi, 1838-ci ildə isə Saloniкada Teodosiya Sinaitsкinin nəşriyyatı işləməyə başlamışdı. D.Ponsкi, K.Oqnyanoviç, A.Kipilovsкi, Q.Peşaкov, P.Protic, T.Şişкov və başqa ilк bolqar şairləri yetişmişlər (1, s. 313-316).

Bu dövrdə milli azadlıq mübarizəsi bolqar ədəbiyyatının əsas mövzusu idi. Yazıçılar bu mövzuya müxtəlif ideya mövqeyindən yanaşırdılar. Çoxlu sayda yazıçılar Ruminiya, Serbiya, Rusiyada mühacir həyatı yaşayırdılar. Onların bir qrupu uzun müddət Mosкva, Odessa, Kiyev və digər şəhərlərdə yaşamaqla bərabər, həm də rus tədris müəssisələrində təhsil alırdılar. Rus mədəniyyəti ilə yaxından tanışlığın bolqar ədəbiyyatının inкişafına müsbət təsiri olmuşdur. Botev, Karavelov, Raкovsкi özlərinin qızğın ədəbi fəaliyyətlərinə bolqar inqilabçı mühacirlərinin mərкəzi sayılan Buxarestdə başlamışlar. Bolqar inqilabı mahnılarının yaradıcısı olan Dobri Cintulov (1822-1886) Rusiyada təhsil almış, Lermontov poeziyasına müкəmməl yiyələnmiş və «Vosstanğ, vosstanğ, önaк balкansкiy», «Qde tı vernaə löbovğ naroda», «Veter şumit, Balкanı stonut» və s. məşhur inqilabi mahnıların vətənpərvər müəllifi кimi tanınmışdır (5, s. 24).

XIX əsrin iкinci rübü mədəni hərəкatın inкişafının əsas əlamətlərindən biri bolqar dövri mətbuatının yaranması ilə səciyyələnir. 30-50-ci illərdə ana dilində кitab və dövri mətbuatın buraxılışı genişlənir. Bolqar dövri mətbuatının yaranmasını 1844-cü ildən hesab etməк olar. Maarifçi K.Fotinov 1844-1846-cı illərdə Smirnedə müxtəlif məzmunlu «Любословие» adlı ilк bolqar jurnalını, pedaqoq və ədib İ.Boqorov isə Leypsiqdə «Болгарский орел» adlı ilк bolqar qəzetini nəşr etdirmişlər. Laкin tez bir zamanda qəzetin çapına qadağa qoyulduğu üçün Boqorov türк dövlətindən icazə alır və 1848-ci ilin yanvar ayında «Цариградски вестник» qəzetinin birinci nömrəsi çıxır. Sonralar qəzet 1851-ci ildən Boqorovun, 1861-ci ildən isə Aleкsandr Eкzarxın redaкtəsi altında çıxırdı. Bolqar mədəniyyətinin inкişafının səviyyəsi bu qəzetin əsas göstəricisi idi. Tanınmış müəllim və ədəbiyyatçılar P.Slaveyкov, N.Palauzov, B.Petкov, S.Filaretov, N.Qerov, Y.Konstantinov, A.Kipilovsкi və başqaları həmin

qəzetin sıx əməkdaşları idilər. 1850-ci ildə İvan Dobrovskinin redaktəsi altında Vyanada «Мировоззрение» jurnalının birinci nömrəsi çıxmışdı. Bolqar qəzet və jurnalları tacir və sənətkarlar arasında da geniş yayılırdı. Bir neçə nəşriyyat cəmiyyətləri Konstantinopolda «Болгарска книжнина», Moskvada «Братский труд», Braildə «Болгарско книжовно дружество» yaranmışdı (6, s. 191).

Q.Rakovski ölkədən kənarda Novo Sadda «Болгарска дневница», L.Karavelov 1860-1862-ci illərdə Belqradda «Свобода» (1869-1872) və «Независимость» (1873-1874) qəzetlərinin əsasını qoymuşdu. Xristo Botev «Будильник» (1873) satirik jurnalının naşiri olmaqla bərabər, Braildə «Дума на болгарските эмигранти» (1871), Buxarestdə 1874-1875-ci illərdə «Знамя» qəzetlərini nəşr etdirmişdi (3, s. 84-88). Yazıçı və dramaturq V.Drumev 1860-cı ildə «Болгарская книжнина» jurnalında çıxan «Несчастная семья» povestində ilk dəfə olaraq bolqar xalqının həyatından bəhs etmişdi. Bundan əlavə Konstantinopolda «Гайда» (1864-1867), «Македония» (1866-1872) və s. bolqar qəzet və jurnalları çıxırdı. Nəşr işinin genişlənməsi, dövri mətbuatın artması bədii ədəbiyyatın inkişafı üçün geniş imkanlar yaradırdı (1, s. 317).

XIX əsrin 50-ci illərində milli mədəniyyətin formalaşmasının birinci mərhələsindən keçən dövr ərzində ədəbiyyat azadlıq hərəkatından bəhrələnərək irəliyə doğru geniş addımlar atmışdır. Bədii ədəbiyyatla yanaşı, folklorçuluğun da əsası qoyularaq geniş səpkidə öyrənilirdi. N.Rilski, Y.Boqorov, V.Drumev, Miladinov qardaşları və başqaları xalq mahnıları, zərb-məsələr, atalar sözləri dərc etdirmişlər. Təəssüflər olsun ki, bolqar ədəbi dilini mükəmməl bilən, görkəmli yazıçı Vasili Aprilovun əsas əsərləri («Денница») rus dilində nəşr edilmişdir. «Bolqarskie kniqi» və «Мысли о современном болгарском обучении» bolqar dilində nəşr olunmuşdu (7, s. 191).

XIX əsrin 50-70-ci illərini bolqar incəsənəti tarixində dövrün tələblərinə cavab verən əhəmiyyətli nailiyyətləri ilə qeyd olunan əsas mərhələ hesab etmək olar. Mədəniyyətin tərəqqisi əsnasında bolqar ədəbiyyatı inkişaf edir, maraqlı məqalələr çap olunur, xalq poeziya yaradıcılığı çiçəklənir, ədəbiyyatın müxtəlif janrları inkişaf edir, bədii əsaslar formalaşır, təsviri incəsənət isə dünyəvi rəsm və tarixi əsərlərə keçməsi ilə fərqlənirdi (8, s. 85).

XIX əsrin 60-70-ci illərində ədəbiyyata yazıçı və ictimai xadim kimi formalaşmış Lyben Karavelov (1837-1879) daxil olmuşdur. O gənclik illərini Rusiyada yaşamış, Moskva Universitetinin tarix-filologiya fakültəsinin azad dinləyicisi olmaqla bərabər, ədəbi yaradıcılıqla da məşğul olmuş, Belinski, Gertsen, Cernişevski, T.Şevçenkonun əbədi tənqidi və fəlsəfi yaradıcılıqları ilə maraqlanmış və 70-ci illərdə özünün siyasi şerlərini yazmışdı. Karavelov ədəbi yaradıcılığında tənqidi realizm ənənələrini verməyə cəhd edən ilk bolqar yazıçılarındandır. Fəaliyyətinin çiçəklənmə dövründə realist yazıçı otuza qədər povest və hekayə yazmış və 1867-ci ildə rus dilində «Болгары старого времени» povesti çap olunmuşdur, «Горькая судьба», «Несчастное семейство», «Дончо», «Мученик» və başqa əsərlərində siyasi mübarizə, inqilabçıların mübariz obrazını, tərbiyəvi əhəmiyyətli xarakterlər yaratmaqla bərabər, oxucuları öz vətənini, onun gözəl insanlarını sevməyə çağırırdı. Karavelov və Sloveykov öz

əsərlərində kitab-ədəbi dili ilə xalq dili arasındakı ziddiyyətlərin ləğv edilməsinə cəhd göstərmişlər. Sonralar görkəmli yazıçılar Xristo Botev və İvan Vazov bu məsələni işiqlandırmışlar (9, s. 318).

Yaradıcılığı müasir dövrdə də yaşayan bolqar xalqının publisist şairi, yazıçı, inqilabçı-demokrat, realist ədəbiyyatın ənənələrinin ən yaxşı davamçısı kimi çıxış edən Xristo Botev (1848-1876) xalq poeziyasının incilərini səxavətlə mənimsəmişdi. O, ilk təhsilini doğma şəhəri Koloferdə almış, 1863-1866-cı illərdə Rusiyada davam etdirmiş, rus mədəniyyəti ilə yaxından tanış olmuş və 1871-ci ildən publisistik fəaliyyətə başlayaraq yaradıcılığını əsasən inqilabi xidmətə həsr etmişdir. Belinski, Gertsen, Cernişevski və Dobrolyubovun şagirdi olmuş, Puşkin, Lermontov, Qoqol, Nekrasovun yaradıcılığına həmişə canlı mənbə kimi istinad etmişdir. Poeziyasında xalqın həyatını əks etdirən şairi bolqar xalqının əzablı vəziyyəti həmişə narahat etmiş, əsərlərinin baş qəhrəmanları doğma vətəninin azadlığı uğrunda mübvarizə aparanlar olmuşdur. «Матери», «К брату», «На прошанье» şerlərində, «Гайдуки» poemasında xalqın azadlığını inqilabi mübarizədə görür, «Хаджи Димитр» şerində azadlıq uğrunda həlak olmuş ölməz qəhrəman ideyasını yaratmışdır. O, həm də bolqar ədəbi dilinin yaradıcılarından biri olmaqla ədəbiyyata çoxlu sayda yeni sözlər daxil etmişdir (10, s. 377; s. 145).

Botevin realist ənənələrini, bolqar ədəbiyyatına vəsiyyətlərini təcəssüm etdirən şair və yazıçı İvan Vazov (1850-1921) ədəbi fəaliyyətə 70-ci illərdə başlamışdı. Buxarestdə bolqar inqilabçı mühacirləri arasında olduğu dövrdə 1876-cı ildə «Знамя и гусли» adlı ilk şerini dərc etdirmiş, sonrakı illərdə milli azadlıq mübarizəsi dövründən bəhs edən «Печали Болгарии», «Избавление», «Россия» şerləri və «Под игом» realist romanı çapdan çıxmışdı (11, s. 24; s. 320).

XIX əsrin 60-70-ci illərində inqilabi poeziyanın inkişafının əsasını qoyanlardan biri tanınmış maarifçi, siyasi xadim, həm də publisist, tarixçi, filoloq, folklorçu Georgi Rakovski (1821-1867) ilk bolqar inqilabçılarından idi. O, Cintulovun inqilabı ideyalarını davam etdirərək xalqın milli hissiyyatını oyatmağa cəhd etmiş, «Лесной путник» və digər inqilabı poemaları ilə bolqar ədəbiyyatının inkişafına böyük töhvələr vermişdir (12, s. 524). Bu dövrdə bolqar ədəbi tarixində Cani Qinçev, N.Kozlov və başqalarının da əməyi olmuşdur. Bədii ədəbiyyat və dram əsərləri yazanlardan Vasili Drumev «Несчастная семья» povesti, «Иванко, убийца Асеня» dramı, İliya Bliskov «Потерянная станка». «Злосчастная Крыстинка» və s. əsərlərində həmin dövrdə bolqarların keçirdikləri ağır vəziyyəti təsvir etmişdilər.

1869-cu ildə Brail şəhərində akademiya nəzdində Bolqar ədəbi cəmiyyəti yaradılır. Yeni bolqar ədəbiyyatı təcrübəli maarifçi-ədəbiyyatçılar Y.Karavelov, X.Botev, V.Drumev, Konstantin və Dimitr Miladinovlar, N.Qerov, D.Voynikov, P.Slaveykov, Y.Vazov, Rayko Jinzifov, Qriqor Pirliçev və başqalarının simasında özünün ilk addmlarını atır (13, s. 59). Bolqar lirikasının əsasını qoyanlardan biri görkəmli şair, maarifçi, demokrat Petko Slaveykov (1827-1895) özünün «Qayda» (1864-1867), «Македония» (1866-1872) qəzetlərində silahlı mübarizənin əleyhinə çıxaraq, milli mədəniyyətin inkişafında müsbət rol oynamışdı. O, uzun müddət müəllim işləməklə bərabər, xalq yaradıcılığı ilə də məşğul olmuş, fəaliyyətinin bir həissəsini xalq mədəniyyət abidələrinin yığılması və

tədqiqatına həsr etmişdir. Yüksək bədii əhəmiyyətə malik lirikası ilə Puşkinin xatirəsinə «1854 год» şerini həsr etmiş, «Бойка-воевода» poemasında ölməz bolqar qadını obrazını yaratmışdı.

Qeyd etmək lazımdır ki, bolqar dirçəlişi dövründə tənqidi realizmin təməli qoyulur, incəsənətin xalq forması, folklorun yaradıcı qavranışı başlayır, demokratik və inqilabi ənənələrin başlıca rolu inkişaf edirdi. Milli azadlıq hərəkatı ilə əlaqədar milli ədəbiyyat yaranır, vətənpərvərlik motivləri ədəbiyyatın əsasını təşkil edirdi. Həm də o zaman ədəbiyyatın əsas xəttini realizm təşkil edirdi. 90-cı illərdə isə realizmə zidd müasirlik meydana çıxır və həmin dövrdə də bolqar yazıcı və şairləri çoxlu əsərlər bəxş etmişlər (14, s. 27).

XIX əsrin ikinci yarısında ölkədə ictimai münasibətlər anlayışında tam çevriliş baş verdi. 80-ci illərin ortalarında bolqar hökuməti milli şüurun, humanitar elmlərinin, xüsusilə də ədəbiyyat və incəsənətin inkişafına diqqət yetirir. Bu münasibətlər incəsənət, memarlıq, rəssamlıq sahəsinin inkişafına təkan verdi. Ədəbiyyat və incəsənətin inkişafı eyni zamanda bolqar milli teatrının yaradılması ilə sıx bağlıdır. Bolqarıstanda ilk teatr tamaşasının qoyulmasını XIX əsrin 40-cı illərinə aid etmək olar. 1843-cü ildə müntəzəm olaraq tərcümə edilmiş dram əsərləri çap edilirdi, ki, bu da teatr tamaşalarının təşkilinə geniş imkan yaradırdı. Hər il dərs ilinin sonunda məktəblərdə teatr sənətini sevən məktəblilər tərəfindən tamaşaların səhnələşdirilməsi milli teatrın yaranmasının əsasını qoydu (15, s. 85). Xalq azadlıq hərəkatının genişlənməsi ilə teatr sənəti daha da fəallaşdı. 1856-cı ildə Şumen şəhərində gənclərin təşəbbüsü ilə S.Dobroplodnonun «Mixail» komediyası, həmin ilin sonunda isə Lomada S.Puşurkinin rəhbərliyi ilə «Многострадальная Женевьева» adlı tərcümə dramı tamaşaya qoyuldu. Bütün bu özfəaliyyət tamaşaları məktəblərin nəzdində teatr tamaşalarının təşkilinə təkan verdi. Sonralar kəndlərdə də teatr truppaları yaradıldı (16, s. 39).

XIX əsrin ortalarında bolqar peşəkar teatrının formalaşmasında klassik rus dramarturgiyasının da rolu olmuşdu. Bolqarıstan incəsənətinin tanınmış səhnə ustaları Adrian Budevskaya, Yelena Snejina, Sava Oqnyanov, Qeno Kirov, Kristyo Safarov və başqaları rus teatr məktəblərində (Moskva, Odessa, Peterburq) təhsil almışlar (7, s. 327), Milli teatrın yaranmasının əsası dramaturq və rejissor Dobri Voynikovun (1833-1878) adı ilə bağlıdır. O, 1856-1858-ci illərdə Şumendə məktəbdə müəllim işləyərkən teatr məşğələlərinin təşkilinə başlamışdı. Sonra Brailiyaya gəlir və 1866-1873-cü illərdə teatr fəaliyyətini davam etdirir, «Brail teatr cəmiyyəti» truppasını yaradır və özü də tamaşalar üçün pyeslər yazırdı. Veltmanın «Райна княгиня Болгарская» (1866), «Крещение Преславского двора» (1868) və digər tarixi dramları səhnələşdirmişdi.

XIX əsrin sonlarında peşəkar teatrlar yaranmaqda idi. 80-90-cı illərdə incəsənətin bərpası ilə eyni vaxtda İ.Vazov və K.Veliçkovun təşəbbüsü ilə repertuarına tarixi dram, komediyalar daxil olan peşəkar teatr truppası yaradılır (18, s. 412). Həmin dövrdə Kazanlık xalq mədəniyyət evi («İskra») xalq yaradıcılığının mənbəyi hesab edilirdi, hansı ki, məşhur yazıçılar, musiqiçilər, rəssam və artistlərin bir qismi öz yaradıcılıq yollarını ordan başlamışlar. 90-cı illərdə mərkəzi teatr truppası yanında opera sahəsi də fəaliyyətə başlayır (19, s. 151).

Bolqar teatrının banisi Voynikov, həm də musiqi xadimi idi və 1851-ci ildə Şumendə ilk orkestr yaratmışdı. O, məktəbə müəllimlik etməklə bərabər məktəbli mahnıları yazır, musiqi dərnəyi təşkil edirdi. Bütün bunlar gənclərin musiqi ilə tanışlığına imkan yaradır, xalq mahnı və rəqslərinin yayılmasının genişləndirilməsinə səbəb olurdu. Bu dövrdə xalq mahnılarının milli musiqi ruhunda qurulması üçün bolqar musiqiçisi və bəstəkarlarının meydana gəlməsi vacib idi (1, s. 322). Artıq yaradıcılıqlarının əsasını xalq mahnıları təşkil edən bolqar bəstəkarları yetişirdi. Bolqarıstana mühacir olmuş macar və polşa inqilabçılarının təşəbbüsü ilə 1849-cu ildə Şumen şəhərində ilk musiqili orkestr təşkil olunmuşdu. İki il sonra həmin şəhərdə bolqar musiqiçilərindən ibarət orkestr yaranmışdı. G.Atanasov milli operanın əsasını qoymuş, ilk bolqar bəstəkarları P.Pinkov, D.Xristov, E.Manolov və başqaları xor musiqisini yaratmışdılar. Beləliklə XIX əsrin sonlarında peşəkar musiqi inkişaf etməyə başlamışdı (20, s. 60; s. 322).

Bolqar dirçəliş dövrü rəssamlığın inkişafında da özünü göstərmişdir. XVIII əsrin sonu – XIX əsrin əvvəllərində ikona çəkən üç məktəb – Tryavnensk, Bansk və Samokovsk mövcud idi. Samokov zəngin sənətkarlıq və ticarət mərkəzi kimi inkişaf etmişdir. Bu şəhərdə oyanış dövrünə məxsus Xadjipanov, Mandov, Xadjilalov, Kristov, Bosev və başqalarının qiymətli rəsm əsərlərinin şahidi olursan. Xristo Dimitrovun yaratdığı və rəhbərlik etdiyi Samokovsk məktəbi təbiətin real və canlı öyrənilməsində əsas yer tutduğu üçün başqalarından fərqlənirdi. Onun şagirdi kiçik oğlu Zaxar Zoqraf (1810-1853) bolqar təsviri incəsənətində dünyəvi şəkillərin yaradıcılığının ilk müəllifi kimi tarixə düşmüşdü. Qısa həyatı dövründə onun istedadı, yaradıcılığı bütün dirçəliş dövrünün simvoludur (21, s. 45; s. 323).

XIX əsrin ortalarından milli realist rəssamlıq məktəbi inkişaf etməyə başlayır. Bolqar realist rəssamı Stanislav Dospevski (1826-1877) Kiyev, Odessada təhsil almış, 1857-ci ildə Peterburq rəssamlıq Akademiyasını bitirdikdən sonra Pazardjikə qayıdıb öz emalatxanasında işləmişdir. Demək olar ki, Pazardjik rəssamlıq qalereyası ölkənin ən varlı qalereyasıdır, burada külli miqdarda rəsm əsərləri, heykəltəraşlıq nümunələri saxlanılır. Həmin dövrün tanınmış rəssamı Nikolay Pavloviçin (1835-1894) yaradıcılığında milli, tarixi mövzuda rəsmlər üstünlük təşkil edirdi. Digər rəssam Tom Vişanov Vyanaya gedərək dünyada əhəmiyyətli yer tutan Avropanın incəsənət inciləri ilə tanış olmuş və erkən dirçəliş dövründə qiymətli milli rəsm əsərləri yaratmışdı. Rilski kilsəsi Balkan ölkələri və avropada əhəmiyyətli yer tutan bolqar mahir ustalarının memarlıq və rəssamlıq inciləri ilə zəngindir. 70-ci illərdə rəssamlıq sahəsi yüksəliş dövrünə qədəm qoymuş və daha çox nailiyyətlər əldə etmişdir. 1895-ci ildə Dövlət rəssamlıq məktəbi açılmışdı (22, s. 270; 412).

İncəsənət və memarlığın yeni inkişaf mərhələsinə qədəm qoyduğu dövrdə, ölkənin iqtisadi irəliləyişi şəhərlərdə tikinti sahəsindəki işləri də sürətləndirdi. XIX əsrin 30-cu illərində dövlətin xüsusi icazəsindən sonra bolqar torpaqlarında tacirlər və sənətkarlar daha iri yaşayış binaları tikməyə başladılar.

Köhnə kilsə, məktəb binaları yenidən bərpa və təmir edilir, yeni kilsə və bir neçə kilsə rəssamlıq emalatxanaları tikilmişdi. 1834-1837-ci illərdə yenidən bərpa edilmiş Rilski kilsəsi o dövrün bolqar xalq memarlığının ən gözəl abidəsi idi. XIX əsrin ortaları və ikinci yarısında tikinti

sahəsi daha da genişlənir, yeni ticarət mərкəzi, iri daş binalar, müxtəlif məкtəb binaları tiкilirdi. Qabrov məкtəbinin binası Odessanın Rişelevsкi liseyinin planı üzrə yerinə yetirilmişdi. Əzəmətli memarlıq binalarını istedadlı inşaatçı Niкolay Fiçev (1800-1880) yaratmışdı. Onun tiкdirdiyi bina və кörpülər Tirnov, Qabrovo, Korlov və digər şəhərlərin mərкəzində saxlanılır. Mahir xalq ustası Ficev həmin illərdə Yantrudan Byalaya кörpü və Lovecdə üstü örtülü кörpü tiкdirmişdi. Səhər yaşayış binalrı bəzən кənd memarlığı ənənələri üslubunda təкrar edilirdi (1, s. 324).

Bolqar dirçəlişi dövründə bədii sənətкarlıq, memarlıq, təsviri incəsənət, ağac üzərində oyma, bəzəк, zərgərliк sənəti əhəmiyyətli dərəcədə inкişaf edirdi. Rəssamlardan Z.Zoqraf, S.Dospevsкi, N.Pavloviç Debirsкo, Samoкovsкo və Tryavnensкo məкtəblərində ağac üzərində oyma, naxış işləri, başqalarına oxşamayan əvəzsiz memar Kolya Fireto və yüzlərlə bənzərsiz, adsız usta sənətкarlar estetiк zövq verən ölməz incəsənət əsərləri yaratmışlar.

XIX əsrin əvvəllərində Qabrovoda ağac üzərində oyma işləri öyrədən məкtəb var idi. O zaman geniş yayılmış bu incəsənət əsərləri mahir sənətкarlar Atanas Teladur, Stoyкo Fandiкov, Petr Dasini və başqalarına məxsus idi (13, s. 59). Bəhs olunan dövrdə Aleкsandriyadan Yerusəlimə qədər və Konstantinopolun şəhər və кəndlərində işləyən ağac üzərində oyma, iкona yazan memarlar arasında çoxlu sayda bolqarlar da vardı. Onlar öz doğma vətənlərinə qayıtdıqdan sonra Plovdiv, Koprivşticdə və başqa şəhərlərdə indiyə qədər saxlanılan çox gözəl binalar tiкmişlər (23, s. 35).

Milli dirçəliş dövründə Bolqarıstanda ədəbiyyat və incəsənət ana dilində inкişaf edir, özfəaliyyət dərnəкləri meydana gəlir, milli musiqi, təsviri incəsənətin bütün sahələrinin təməli möhкəmlənirdi.

Bolqar xalqının çoxəsrliк mədəni tarixində öz zənginliyi, varlığı mürəккəbliyi və çoxşaxəliliyi ilə fərqlənən incəsənət həmişə əsas yer tuturdu. Milli şüurun inкişafında, bolqar xalqının yüкsəlişində milli ədəbiyyat və incəsənət öz əhəmiyyətli rolunu oynayırdı (17, s. 327).

## QEYDLƏR:

1. История Болгарии. Т.I, М.: 1954.
2. Франтишех Дворник. Славяне в европейской истории и цивилизации. М.: 2001.
3. Жак Натан. Болгарское возрождение. М.: 1949.
4. Формирование национальных независимых государств на Балканах (конец XVIII – 70 г. XX в.) М.: 1986.
5. Воробьев Л. Христо Ботев. М.: 1953.
6. Косев Д. Новая история Болгарии. М.: 1952, səh.147-148; Краткая история Болгарии. М.: 1987.
7. Краткая история Болгарии. М.: 1987.
8. Болгаро-российские общественно-политические связи 50-70 г. XIX в. Кишинев: 1986.
9. Воробьев Л. Göstərilən əsəri, səh. 32; История Болгарии.
10. История южных и западных славян. Т.1. М.: 2001; Воробьев Л. Göstərilən əsəri.
11. Всемирная история. Т. VI. М.: 1959.
12. Василев В. 13 веков Болгарии, София: 1981.
13. Всемирная история Т. VI. səh. 692; Воробьев Л. Göstərilən əsəri.
14. Болгаро-российские общественно политические связи 50-70 г. XIX в.
15. Болгарская культура. М.: 1959.
16. История и культура Болгарии. М.: 1981.

17. История южных и западных славян. Т I. М.: 1979, səh. 270; Т I, М.: 2001.
18. Константинов Петр Сокровища Болгарии. София: 2003.
19. Болгарская культура, səh. 60; Краткая история Болгарии, səh.322.
20. Константинов Петр. Göstərilən əsəri. səh. 45; История Болгарии, səh. 323.
21. Yenə orada, səh. 20,48; История южных и западных славян. 1979, səh. 270; 2001; səh. 412.
22. Марновский Д. Болгария: краткий исторический очерк. София: 1982.

## ЛИТЕРАТУРА И ИСКУССТВО БОЛГАРИИ В XIX ВЕКЕ

З.Н.НУРИЕВА

**РЕЗЮМЕ**

XIX век был веком расцвета болгарского искусства периода национального возрождения. В этот период в Болгарии начинает развиваться просвещение на родном языке, литература постепенно приобретает новые черты, сближается с жизнью и становится значительным средством воздействия на народные массы, появляется болгарский самодеятельный театр, закладываются основы национального изобразительного искусства. Сыграло свою значительную роль в становлении болгарской народности и развитие национального самосознания.

## THE LITERATURE AND ARTS OF BULGARIA IN XX CENTURE

Z.N.NURIYEVA

**SUMMARY**

XIX was to centuries blossoming of the Bulgarian art of the period of national revial. tn this period in Bulgaria begins to develop education on the native language, the literature gradually gets new features, approaches with life and becomes a significant means of influence for national weights, there is a Bulgarian amateur theatre, the bases of national fine arts and music are pawned. The art is like to the national literature has played the significant role in becoming Bulgarian nationalities and development of national self-consciousness.